# İMİŞLİ RAYONUNUN TƏBİİ ŞƏRAİTİNİN VƏ TƏSƏRRÜFATININ ÜMUMİ SƏCİYYƏSİ

**Kərimova L.R., Cümşüdlü M.D.**

*Bakı Dövlət Universiteti*
*Cumshudlu99@gmail.com*

İmişli rayonu Azərbaycan Respublikasının inzibati ərazi vahidi hesab olunur və onun inzibati mərkəzi İmişli şəhəridir. Imişli rayonu 8 avqust 1933-cü ildə yaradılıb. O, Kür-Araz ovalığına aid olan Mil-Muğan düzündə yerləşir. Rayonun ərasizinin çox hissəsi okean səviyyəsindən aşağıdır. Onun şimal sərhəddi boyunca Kür çayı, mərkəzi hissəsindən isə Araz çayı axır. Bu çaylarla bərabər Sarısu gölünün çox hissəsi də rayonunun ərazisindədir və çay və su hövzələri də bunlardan ibarətdir. Araz çayının sağ sahili Muğan düzünə, sol sahili isə Mil düzünə aiddir. Şirvan düzü ilə Kür çayı rayon ərazisinin Mil düzündəki sahəsini ayırır.

Rayon boz-çəmən, qismən boz və çəmən-boz torpaqlardan ibarətdir. Rayonun iqlimi yayı quraq keçən mülayim isti, quru çöl və yarımsəhradır. Orta temperatur yanvar ayında 1,6˚C, iyul ayında 26,1˚C , illik yağıntıların miqdarı isə 300 mm-dir.

Ərazinin geoloji quruluşunda əsasən IV dövrün allüvial və dellüvil-prolüvial çöküntüləri geniş yayılmışdır. Rayonun əsas bitki örtüyü yovşan və şoran formasiyasından ibarət yarımsəhra tipidir. Ərazinin meşə sahəsi qarağac, tut, qovaq, yemişan, itburnu, adi nar, yulğun kimi ağac və kollardan ibarətdir. İmişli rayonu özünəməxsus heyvanlar aləminə malikdir. Belə ki, burada canavar, adi tülkü, qaban, boz dovşan, ceyrana çox rast gəlinir. Xırda məməlilər, əsasən qumsiçanı ilə təmsil olunmuşdur. Quşlardan qırqovul, qaraqarın, bağrıqara, turac, bəzgək və dovdaq daha çoxdur.

İmişli rayonunun Azərbaycanın kənd təsərrüfatıda mühüm əhəmiyyəti vardır. Rayoda taxılçılıq, pambıqçılıq, meyvəçilik, tərəvəzçilik və bostançılığının müxtəlif sahələri inkişaf etmişdir. İmişli Respublikamızda şəkər çuğundurunun yetiştirildiyi ilk rayon hesab olunur. Rayon özü qış otlaq sahələri ilə də tanınır. Burada həm rayonun qoyunçuluq təsərrüfatlarının, həm başqa rayonların təsərrüfatlarının qoyunları qış mövsümündə yemlə təmin edilir. Rayonda mədəni yemçiliyin inkişafından ötrü xeyli təbii və iqtisadi potensial vardır.

Mil düzünün ümuni torpaq ehtiyatlarının İmişli rayonu ərazisinə aid olan hissəsi üzrə istiadəçiliyi aşağıdakı kimidir: İmişli rayonunun ümumi sahəsi 1890 $km^2$-dir (189026 ha). Ümumi sahənin kənd təsərrüfatı sahələri üzrə ümumi ərazisi 121998 ha-dır. Bu sahənin 34835 ha-ı əkin və dincə qoyulmuş torpaqlar, 8 ha-ı çoxillik əkmələr, 79878 ha-ı örüş və otlaqlar, 7277 ha-ı həyətyanı sahələrərin payına düşür. Kənd təsərrüfatında istifadə olunmayan sahələrə aid olan ərazilərin isə 6890 ha-ı meşə, 66339 ha-ı isə digər sahələrin payına düşür.